# NAYORA Xocalı soyqırımı qurbanlarını yad edib

**Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası (NAYORA) Xocalı faciəsinin otuz ikinci ildönümü ilə əlaqədar tədbirlər keçirib.**



NAYORA-dan AZƏRTAC-a verilən məlumata görə, qurumun təşkilatçılığı ilə gənclər təşkilatlarının rəhbər və nümayəndələri faciə qurbanlarının xatirəsinə ucaldılmış "Ana harayı" abidəsini ziyarət ediblər. Xocalıda amansızcasına qətlə yetirilmiş günahsız insanların ruhlarını dərin ehtiramla yad edərək abidə önünə gül dəstələri düzüblər. Bununla yanaşı, Gənclər Fondunun dəstəyi, NAYORA-nın və "Böyük qayıdış" Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə Azərbaycan Dövlət Pedaqoji Universitetində Xocalı faciəsinin 32-ci ildönümünə həsr olunmuş "Xocalı: Tarixi yaddaş" anım tədbiri də keçirilib.

Azərbaycan.- 2024.- 28 fevral, № 45.- S.7.